# DAĞISTAN




Bəzi müasir ifaçılar bu mahnıya nəqərat şəklində aşağıda göstərilən musiqi parçasını əlavə edirlər:




Dağıstan dağ yeridir,
Gürcüstan bağ yeridir.
Dağılmış Carbazarı, ay balam,
Qızların bol yeridir.

Paprosum yana-yana,
Od düşüb şirin cana,
Səni qoyub gedərəm, ay quzum,
Qalarsan yana-yana.

Bu dağda maral gəzər,
Telini darar gəzər.
Mən yara neyləmişəm, ay gülüm,
Yar məndən kənar gəzər.